F. Köçərli adına Respublika Uşaq Kitabxanasının keçirdiyi tədbirlər bir qayda olaraq həmişə öz səmərəliliyi və dolğunluğu ilə seçilir. Bu mənada, aşağıdakı tədbirlər də istisna deyildir.



# Rəngarəng tədbirlər

**Məlumat üçün bildirək ki, bu yaxınlarda kitabxana R.Zorge adına Parkda 1 iyun Uşaqların Beynəlxalq Müdafiə Günü və Müstəqilliyimizin 20 illiyinə həsr olunmuş "Dünyanı verək uşaqlara" adlı Uşaq Kitabı Bayramı keçirdi.**

Səhnənin baş tərəfində bayramın emblemi, hər iki tərəfdə isə ulu öndərimiz H.Əliyevin uşaqlarla birlikdə çəkilmiş şəkilləri olan plakatlar asılmışdı. "Kitab - mənəvi sərvətimizdir", "Kitab oxumağın vaxtıdır" adlı şüarlar, elm və biliklə bağlı müdrik kəlamlar isə balaca plakatlarda bağın içərisində qoyulmuşdu. Kitab sərgiləri aşağıdakı mövzular üzrə təşkil olunmuşdu:

"Müstəqillik yollarında - 20", "Tarix - keçmişdən gələcəyə", "İncəsənət - bəşəriyyətin misilsiz sərvəti", "Məktəb proqramına kömək", "Nağıllar aləmində", "Sirli-sehrli nağıllar", "Azərbaycan - yurdum mənim", "Sənin maraq dünyan", "Kitablarda mən hələ, baxıram şəkillərə...", "Çox oxuyan, çox bilər", "Azərbaycanın elm və mədəniyyət xadimləri", "Biri var idi, biri yox idi", "Güvəncin nağılları", "Dərədən , təpədən", "Mən və mənim dünyam", "Elm və texnika - inkişaf tarixi", "Xarici dilləri öyrənək", "Sağlam həyat tərzi yaşayaq", "Qüvvət elmdədir, başqa cür heç kəs, heç kəsə üstünlük eyləyə bilməz", "Musiqi - səmimiyyət məbədi", "Bilikli adamlar uzağı görər, cahilin zəhməti hədərdir, hədər". "Yeddi rəngli kəmərim", "Muğam dünyasına səyahət", "Vətən mənə oğul desə nə dərdim", "Azərbaycan xalq yaradıcılığı paytaxtları -2011" və s.

Həmçinin "Mənim dünyam" adlı rəsm müsabiqəsinə təqdim olunmuş rəsmlərin də sərgisi təşkil olunmuşdu.

Nəşriyyatlardan "Altun", "Turan", "Kitab klubu", M.Seyidzadə adına kitabxana, kitab mağaza "Şirvan " kitabların satışını təşkil etdi.

Tədbiri giriş sözü ilə açan F.Köçərli adına Respublika Uşaq Kitabxanasının direktoru Füzurə Quliyeva kitab bayramının keçirilməsinin məqsədindən danışdı. Musiqi və alqış sədaları altında aparıcılar - Yasamal rayonundakı 175 saylı məktəbin 8-ci sinif şagirdləri Haqverdiyev Vüqar və Salamova Zeynəb səhnəyə daxil oldular. Onlar Müstəqil Azərbaycanımızın yaranmasının 20 illiyi ərəfəsində bugünkü şad, firavan, xoş günlərimizi, bayramlarımızı keçirməyimiz üçün ulu öndərimiz Heydər Əliyevin ruhu qarşısında bir daha baş əydilər, 1 iyun - Uşaqları Beynəlxalq Müdafiə Gününün yaranması tarixindən 1949-cu ildən uşaq bayramı kimi qeyd edilməsindən söhbət açdılar. Sonra Dövlət Uşaq Filarmoniyasının rəqs kollektivinin ifasında "Dilşadi" rəqsinə tamaşa etdilər.

Tədbirdə iştirak edən bütün iştirakçılara "Göy qurşağı" uşaq jurnalı, kitabxananın bələdçisi və vizit kartı, qələm verildi.

Kiçik yaşlı uşaqlar asfalt üzərində rəsmlər çəkdilər.

Nağıl otağının işçiləri uşaqlar arasında "Nağıllarımızı bilirsinizmi?" adlı çox maraqlı viktorinalar keçirərək qalibləri mükafatlandırdılar.

Bayramda Mədəniyyət və Turizm Nazirliyinin kitabxana sektorunun əməkdaşı Samir Abbasov, Nəsimi Rayon İcra Hakimiyyətinin əməkdaşları, O.Zülfüqarovun "Aysel" qrupu, Uşaq Filarmoniyası, Musiqili Komediya Teatrı ("Baş tutmayan hiylə" tamaşasından bir parça), Gənc Tamaşaçılar Teatrı ("Tıq-Tıq xanım" tamaşasından bir parça), Bülbül adına musiqi məktəbi, "Səma" rəqs qrupu, Bakı şəhər məktəbləri, bağçaları, liseyləri, İncəsənət gimnaziyası, Az.TV, İctimai televiziya, Space, ATV və digər kanallardan nümayəndələr iştirak edirdi. KİV nümayəndələrindən "Mədəniyyət", "Vışka ", "Savalan" qəzetlərindən nümayəndələr tədbirlə bağlı müsahibə aldılar. Musiqi Festivalının qalibi Məhsəti Cabbarova öz gözəl mahnıları ilə uşaqları əyləndirdi, fəal oxucumuz Turanə Məmmədova kitab və kitabxana haqqında şeirini məharətlə söylədi.

Uşaq yazıçı və şairlərindən Ələmdar Quluzadə, Rafiq Yusifoğlu, Sevinc Nuruqızı, Gülzar İbrahimova, Solmaz Amanova, Zahid Xəlil, Elxan Elatlı, Nüşabə Məmmədli tədbirdə iştirak etməklə yanaşı, bayram iştirakçılarını salamladılar, gözəl çıxışları ilə bayrama yeni rəng qatdılar.

**Tədbirin sonunda "Mənim dünyam" rəsm müsabiqəsinin qalibi 6 yaşlı Əliyeva Qızxanım I yer tutduğuna görə, bütün təşkilatlar tədbirdə fəal iştirak etdiklərinə görə F.Köçərli adına kitabxana tərəfindən diplom və hədiyyələrlə mükafatlandılar.**

**• Z. DADAŞOVA**